Kredo 2020.- 11 mart.- S.16.

Rövşən Novruzoğlu yazıçı-publisist kimi 80-ci illərdən dövrü mətbuatda çıxış edir. Siyasətşünaslıq, politoloji tədqiqatlar üzrə mütəxəssisdir. Bədii yaradıcılıqdan başqa onun bu sahədə də elmi-kütləvi üslubda əsərləri geniş oxucu əhatəsində həmişə maraq doğurub.

Biz Rövşən Novruzoğlunun elmi-kütləvi üslubda qələmə aldığı publisistik əsərlərini oxucu marağında olduğu üçün həmişə nəşr etmişik. Doğrudur, bir çox əsərləri ayrı-ayrı adamlar tərəfindən mübahisə ilə qarşılansa da ümumi oxucu mühitində xüsusi reytinq sahibi olaraq özünü təsdiq edib.

Rövşən Novruzoğlu məsuldar elmi-publisistik yaradıcılığının davamı olaraq yeni əsəri ilə oxucularının görüşünə gəlib: "Karonavirus Azərbaycan genetikasında". O, özünün bu silsilədən olan əsərlərini on cild ətrafında cəmləşdirməyi düşünür. Ona görə də bu əsərini o birinci cild hesab edir. Və kitabına ikinci yardımçı ad olaraq "Genetik ölüm" başlığını seçib. Müəllif mübahisəli görünən faktları təqdim et-

# Azərbaycanda "taclı" virus




məkdən çəkinmir: "Tarix göstərir ki, Azərbaycanın da taleyi viruslar kralının ölüm hökmündən yan keçməyib. Nəticədə, Azərbaycan VI əsrdən üzü bəri, 109-cu, 1347-ci, 1771-ci, 1826-cı, 1916-cı, 1957-ci və s. illərdə baş verən epidemiyada 8 milyon 750 nəfər insan itirdi... Amma epidemiya və onun sindromları davam edir. Epidemiyalara qarşı mübarizə aparan Azərbaycan həkimlərindən təqribən 80 min nəfər bu yolda həlak olub". Bu faktların açımı, tarixi mənbələr, fəsadların miqyası haqqında mülahizələrin məsuliyyəti müəllifin öz boynundadır. Ancaq o məsələyə ardıcıl və inadlı müdaxiləsi ilə cəmiyyətin genofonduna bu hadisələrin - epidemiyaların təsirini iddia edir, düşünürük ki, bu iddiasında da o, kifayət qədər inamlıdır. Həqiqətən epidemiyalar insan axınının təbii hərəkətinə kifayət qədər təsir etmək gücündədir.

Müəllif genetik ölümdən başlayaraq dini-sixolastik təliməcən düşüncələrinə meydan verir. Əsərini "Qafqazda gen uğrunda vuruşma" mətni ilə məntiqi cəhətdən yekunlaşdırır. Kitaba Genetik araşdırmalar üzrə tədqiqatçı-mikrobioloq, biologiya üzrə fəlsəfə doktoru Valiyə Murtuz qızının qeydləri "Ön söz" kimi verilib. Müəllif kitabın titulunda ona yardımçı olan kəşfiyyat generalları A.N.Simonova, A.L.Alekseyevə, D.Q.Qurinə və Y.V.Suvorova da minnətdarlığını bildirir. Kitabın geniş oxucu əhatəsində maraqla qarşılanacağına, mübahisə və müzakirələr açacağına inanmaq olar.

*Ceyhun ZALLI*